UOT: 338.012:336.61

***Müşfiq Mahal oğlu TÜKANOV***
***Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi***
***Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı***
***mushvig.tukanov@bk.ru***

# MÜASİR DÖVRDƏ KƏND TƏSƏRRÜFATINDA MALİYYƏ-KREDİT MEXANİZMİNİN SƏMƏRƏLİ TƏŞKİLİ PROBLEMLƏRİ

**Xülasə**

**Tədqiqatın məqsədi** - müasir dövrdə kənd təsərrüfatında maliyyə-kredit mexanizminin səmərəli təşkili problemləri üzrə araşdırmaların aparılması və həlli yollarının müəyyənləşməsidir.

**Tədqiqatın metodologiyası** - məqalənin hazırlanmasında təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Azərbaycanda müasir şəraitdə ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyət kəsb edən kənd təsərrüfatında maliyyə-kredit mexanizmlərinin səmərəli təşkili üçün daha münasib və məhsuldar mexanizmlərin hazırlanması və reallaşdırılmasi ilə izah olunur.

**Tədqiqatın nəticələri** - maliyyə-kredit mexanizmlərinin optimallığı hesabına ölkəmizdə kənd təsərrüfatının daha məhsuldar inkişaf etdirilməsi istiqamətində tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - qlobal təhlükələrin artdığı bir dövrdə və xüsusilə dünya maliyyə böhranının mənfi fəsadlarının hələ də davam etdiyi şəraitdə ölkəmiz üçün mühüm əhəmiyyət daşıyan kənd təsərrüfatında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi üzrə fərqli yanaşmalar formalaşdırılmış və mövcud mexanizmlərin təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır.

***Açar sözlər: kənd təsərrüfatı, maliyyə-kredit mexanizmi, kənd təsərrüfatının inkişaf problemləri, kənd təsərrüfatının maliyyə problemləri, kredit əlçatanlığı, maliyyə mexanizmi, maliyyə təminatı problemləri*.**

## *Giriş*

Son onilliklərdə qlobal dünyada köklü problemlərin həlli istiqamətində böyük həcmli işlər görülməsinə və səylər göstərilməsinə baxmayaraq, hələ də bir sıra problemlər öz kəskinliyi ilə fərqlənirlər. Bunların sırasında ərzaq təhlükəsizliyi problemi qabarıq olaraq diqqət çəkən məsələlərdəndir və 100 milyonlarla insanlar açlıqdan əziyyət çəkir və yaxud aclıq təhlükəsi ilə üzbəüz qalmışlar. Professor E.A.Quliyev yazır: “Müasir dövrdə bəşəriyyətın qarşısında duran həyati əhəmiyyətli problemlərdən biri, bəlkə də birincisi insanların ərzaq məhsulları ilə təmin olunmasıdır. İqtisadi sistemlərin fəal mübarizəsi dövrü olan XX əsrdə bu problem daha da kəskinləşmiş, iki dünya müharibəsi nəticəsində planetin aqrar potensialından istifadə mühiti xeyli pisləşmişdir... Ərzaq təhlükəsizliyi nəinki milli iqtisadi təhlükəsizliyin, həmçinin milli təhlükəsizlik sisteminin əsası kimi, cəmiyyətin dayanıqlı və dinamik həyat fəaliyyətinin həlledici amilidir” [14, s. 8-9]. Analoji problemlər bütün dünya dövlətlərini narahat etmkdədir və hər bir ölkə özünün ərzaq təhlükəsizliyini təmin etmək və zəruri tədbirləri görmək üçün müəyyən strategiyalar hazırlayir və fəaliyyət konsepsiyaları müəyyənləşdirirlər. Bütün bunların əsas tərkib hissəsində, əslində ana xətt kimi kənd təsərrüfatının inkişafının təmin olunması və bu sahədə məhsuldarlığın ytüksəldilməsi, mühüm ərzaq məhsullarının xammal bazasının yaradılması mütləq şəkildə yer almışdır. Belə ki, məhz əsas və vacib qida məhsulları bu sektorda yetişdirilir və həmin sektorun fəaliyyət istiqamətlərinin davamı kimi aqrar sahədə hazır məhsula və ya yarımfabrikata çevrilir.

Amma, heç də kənd təsərrüfatının dayanıqlı şəkildə inkişaf etdirilməsi asan məsələ deyildir. Maliyyə-kredit resurslarının azlığı, səmərəli maliyyə təminatı mexanizmlərinin olmaması bu prob-

lemləri daha da kəskinləşdirir. Tələb olunan maliyyə resursları problemləri həll edilmədən, kənd təsərrüfatında zəruri islahatların aparılması, mütərərqqi texnologiyaların tətbiq olunması, yüksək texnologiyalar əsaslı avadanlıqların və mexanizmlərin alınması və tətbiqi çətin ki, reallığa çevirilsin və bu baxımdan həmin istiqamətlərdə əsaslı irəliləyişlər əldə etmək üçün dayanıqlı və optimal maliyyə-kredit mexanizmlərinin olması vacibdir. Ölkəmizdə də bu problemlər mövcuddur və dövlət tərəfindən kənd təsərrüfatının müxtəlif sahələrinə fəal şəkildə dövlət dəstəyi, o cümlədən maliyyə-kredit dəstəyi mexanizmləri tətbiq olunur. Hələ ölkə Prezidentinin 16 aprel 2014-cü il tarixli “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanına əsasən bu istiqamətdə məqsədli tədbirlər görülməyə başlanılmışdır [1]. Bu tədbirlər sırasında kənd təsərrüfatında və bütövlikdə aqrar sahədə idarəetmə mexanizmləri təkmilləşdirilmiş, institusional islahatlar sürətləndirilmiş, struktur dəyişiklikləri aparılmış, beynəlxalq təşkilatlarla birlikdə mütərəqqi təcrübənin öyrənilməsinə daha çox diqqət yetirilmiş, bir sıra iri layihələrin icrasına start verilmişdir və s.

**Qlobal təsirlər şəraitində Azərbaycanın kənd təsərrüfatında maliyyə-kredit mexanizminin səmərəliliyinin artırılması problemləri**

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir sıra mürəkkəb problemlərin həlli istiqamətində tarixi səylər göstərilmişdir və bunlardan ən mürəkkəbi ölkədə aqrar islahatların aparılması ilə bağlı olmuşdur. Lakin ulu öndər Heydər Əliyevin geniş dünyagörüşü və dahi zəkası sayəsində aqrar sektorda köklü islahatlar ilk dəfə MDB ölkələri içərisində Azərbaycanda reallaşdırılmışdır. Yüz minlərlə insanlarımız daim üzərlərində zəhmət çəkdiyi və alın təri axıtdığı torpaqlara sahiblənmiş və müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalı ilə daha güvənli şəkildə məşğul olmaq imkanlarına yiyələnmişlər. Bütün bunlar öz nəticəsini göstərmişdir və həmin dövrdə ölkə əhalisinin yarıdan çoxunun yaşadığı kənd rayonlarında əhalinin məşğulluq problemlərinin həll olunmasında və ərzaq bolluğunun yaradılmasında önəmli addımlar atılmışdır. Lakin zaman keçdikcə ölkəmiz inkişaf etmiş və regionun ən güclü iqtisadiyyata malik dövlətinə çevrilmişdir. Tələblər artmış, əhalinin təbii artımı dinamik xarakter daşımış və istehlak səviyyəsi yüksəldikcə, gəlirləri çoxaldıqca daha keyfiyyətli və geniş çeşiddə ərzaq məhsullarına ehtiyac çoxalmışdır. Belə şəraitdə daha mütərəqqi və dünya təcrübəsini özündə ehtiva edən kənd təsərrüfatı və aqrar müəssisələrə ehtiyac artmış, rəqabətqabiliyyətli istehsalatların, fermer təsərrüfatlarının, aqrar-emal müəssisələrin yaradılması üçün iri investisiyalara tələbat yüksəlmiş və daha optimal maliyyə-kredit mexanizmlərinin işlənməsi, tətbiqi zərurəti ortaya çıxmışdır. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə kənd təsərrüfatının müasir dövrdə inkişaf hədəfləri müəyyənləşdirilmişdir [4]. Burada başlıca məqsəd kənd təsərrüfatında məhsuldarlığın artırılması, daha keyfiyyətli ərzaq məhsullarının istehsal olunması və ehtiyatlarının yaradılması, bu proseslərin maliyyə-kredit mexanizmlərinin optimallaşdırılması və onların əlçatanlığının təmin edilməsindən ibarətdir. Digər tərəfdən, ölkə Prezidentinin 11 aprel 2017-ci il tarixli “Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamı ilə bu sahədə mütərəqqi idarəetmə formalarının tətbiqi, yüksək texnologiyaların istifadəsinin genişləndirilməsi, elektonlaşdırma proseslərinin dərinləşdirilməsi və kənd təsərrüfatının inkişaf proseslərinin müasir dövrün tələbləri ilə uyğunlaşdırılması məsələlərinin vacibliyi qeyd olunmuşdur [5].

Qeyd edək ki, son illərdə qlobal səviyyədə ciddi problemlərin, o cümlədən maliyyə-kredit problemlərinin kəskin olduğu bir şəraitdə və həmçının COVİD-19 pandemiyasının mənfi fəsadlarının davam etdiyi bir dövrdə Azərbaycanda kənd təsərrüfatının ümümi məhsulunun həcmi azalmamışdır və bunun əsas səbəblərindən biri dövlət tərəfindən bu sahəyə diqqət və dəstəyin yüksək olması, hər il dövlət büdcəsindən sahənin inkişafı üçün 1 milyard manata yaxın vəsait ayrılması, ayrı-ayrı kənd təsərrüfatı sahələrinin inkişafı üçün onlara maliyyə dəstəyinin göstərilməsi, güzəştli kreditlərin verilməsi və kənd təsərrüfatı gübrələrinin verilməsi, müxtəlif mühüm kənd təsərrüfatı məhsulları üzrə subsidiyaların ayrılması, həmçının dotasiyaların verilməsi, məqsədli dövlət proqramları çərçivəsində regionlarda infrastruktur şəbəkəsinin gücləndirilməsi tədbirlərinin intensiv və ar-

dıcıl şəkildə görülməsidir. 2018-2020-ci illərdə ölkə üzrə kənd təsərrüfatının ümumi məhsul istehsalı 20% artmış və 2020-ci ilin yekununda 8,43 mlrd. manat təşkil etmişdir. Həmin dövrdə bitkiçilik üzrə ümumi məhsul istehsalı - 25% və heyvandarlıq sahəsi üzrə - 15,8% yüksəlmişdir. Fərdi sahibkarlıq, ailə-kəndli və ev təsərrüfatlarının ümumi kənd təsərrüfatında payı - 90,1% təşkil etmişdir [7].

Bütün bunlar onu gösrtərir ki, ölkəmizdə kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılması və ümumi məhsul istehsalının dinamik şəkildə saxlanılması imkanları böyükdür. Ancaq bunun üçün əvvəldə qeyd etdiyimiz kimi maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsi məsələləri vardır. Əlbəttə, fərdi təsərrüfatlarda maliyyə zərərlərinin ayrıca uçotunun aparılmaması və bunun heç də asan olmaması qeyd edilməlidir. Bununla belə, kənd təsərrüfatı üzrə ölkədə fəaliyyət göstərən 1500-ə yaxın müəssisənin maliyyə nəticələrinin təhlilindən yanaşsaq, 90-95 müəssisə zərərlə işləyirlər və ümumilikdə bu müəssisələrin əldə etdikləri mənfəətin məbləği 2019-cu ildə 121 mln.manata yaxın olmuşdur. Digər tərəfdən, “Aqrolizinq” ASC vasitəsilə kənd təsərrüfatı istehsalçılarına geniş çeşiddə xidmətlər təşkil olunmuşdur. Məsələn, 2019-cu ildə bu məqsədlə lizinqə verilməsi və yaxud lizinq yolu ilə satılması hesabına kənd təsərrüfatı məhsulları istehsalçılarına 662 traktor, 197 kotan, 188 kultivator, 180 səpici aqreqat, 225 taxılyığan kombayn və 64 gübrəsəpən maşın verilmiş və ya satılmışdır [8]. Bu qeyd olunanlar ciddi dəstəkdir, həm də səmərəli maliyyə mexanizmi kimi də dəyərləndirilə bilər və eyni zamanda bütövlikdə kənd təsərrüfatı sferasında innovasiyaların yayılması, işlənməsi və tətbiqi proseslərinin genişlənməsini də stimullaşdırar [11]. Amma, təəssüf ki, ümumən ölkə iqtisadiyyatının əksər qeyri-neft sektoru sahələrində olduğu kimi, kənd təsərrüfatında və aqrar-sənaye kompleksində də innovasiyaların tətbiqi məsələləri müasir dövrün tələblərinə cavab vermir.

Maliyyə-kredit mexanizmlərinin əlçatanlığının gücləndirilməsi, dövlət tərəfindən yönəldilən maliyyə resursları ilə bərabər, alternativ maliyyə mənbələrinin formalaşdırılması, kredit təşkilatları tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçıları üçün əlverişli şərtlərlə kredit resurslarının verilməsi vacib məsələlər kimi xarakterizə edilirlər. Belə olduğu təqdirdə ölkəmizdə mövcud resurs potensialından, o cümlədən kənd təsərrüfatının inkişafı üçün imklanlardan daha geniş və səmərəli istifadə olunması reallaşar [10]. Eyni zamanda, bu sahədə perspektivli və məhsuldar fəaliyyət istiqamətlərinin əlavə dəyər və istehsal zəncirləri üzrə inkişaf etdirilməsinə ciddi əsaslar yaranar. Belə ki, kənd təsərrüfatı istehsalında çoxlu sayda məhsullar məhz növbəti emal mərhələsində - aqrar sektorda və onun aqrar-emal müəssisələrində istehsal olunan mühüm ərzaq məhsullarının və digər məhsulların əsas xammalı kimi çıxış edirlər [9]. Məsələn, taxılçılığın inkişafı, ilk növbədə keyfiyyətli ərzaq buğdasının istehsalının artması əlavə istehsal zəncirində yeyinti sənayesinin sürətli inkişafına səbəb ola bilər. Yaxud, ət və süd istehsalının artımı ət və süd məhsullarının yüzlərlə emal olunmuş çeşidlərinin formalaşdırılmasına və bazarlara çıxarılmasına imkan verər. Pambıqçılığın və ipəkçiliyin inkişafı isə son nəticədə yüngül sənaye sahələrinin inkişafı üçün ciddi zəmin yaradar. Buna görə də, ölkəmizdə əlavə dəyər və istehsal zəncirləri nəzərə alınmaqla, kənd təsərrüfatı sahələrinin və aqrar-sənaye kompleksinin qarşılıqlı səmərəli fəaliyyətinə imkan verən iri investisiya-innovasiya layihələri işlənməli və hər bir regionun xüsusiyyətləri, resurs potensialı və imkanları nəzərə alınmaqla investisiyalar yatırılmalıdır.

Bunlarla bərabər, bazar iqtisadiyyatı subyektlərinin sərbəst və azad şəkildə inkişafı üçün tələb olunan maliyyə-kredit resurslarının əldə edilməsi infrastrukturunun və mexanizminin yaradılması vacibdir. Yəni, hər bir bazar iqtisadiyyatı subyekti kənd təsərrüfatı məhsullarının istehsalı və yaxud aqrar-emal müəssisəsinin yaradılması ilə bağlı layihələrin həyata keçirilməsi üçün lazım olan maliyyə-kredit resurslarını maksimum sərfəli şərtlərlə əldə etmək imkanlarına malik olmalı və bu məsələlərin şəffaflığı, səmərəliliyi təmin edilməlidir.

**Hazırkı dövrdə Azərbaycanın kənd təsərrüfatında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi və gücləndirilməsi istiqamətləri**

COVİD-19 pandemiyasının mənfi təsirindən irəli gələn məsələlərin həlli və dəymiş zərərin kompensasiya edilməsi üçün bütün dünya dövlətləri, o cümlədən Azərbaycan müxtəlif tədbirlər

görmüş, mexanizmlər işlənmiş, maliyyə kompensasiyaları tətbiq olunmuş, birdəfəlik yardımlar edilmiş və s. tədbirlər görülmüşdür. Azərbaycanda pandemiyanın təsirindən yaranan maliyyə çətinliklərinin aradan qaldırılması üçün bu vaxta qədər yönəldilən maliyyə yardımı paketinin ümumi məbləğı təxminən 5 mlrd. manat həcmində qiymətləndirilir və bu proseslər hələ də davam etməkdədir.

Dövlətin müxtəlif iqtisadi subyektlərin, o cümlədən kənd təsərrüfatı istehsalçılarının yanında olması və maliyyə dəstəyi göstərməsi təqdirəlayiq hesab edilməlidir. Amma, digər tərəfdən bu məsələlərdə daha çox alternativ maliyyə mənbələrinə, o cümlədən xaricdən cəlb olunan investisiyalara da geniş yer verilməlidir. Həmçinin, hazırda tətbiq olunan maliyyə dəstəyi mexanizmlərinin təkmilləşdirilməsinə və yenilənməsinə ehtiyac duyulur. Biz sudsidiyalara və dotasiyalara qarşı deyilik, bu maliyyə mexanizmləri bütün dünya ölkələrində tətbiq olunur. Amma, biz onun tərəfdarıyıq ki, dövlət tərəfindən ayrılan maliyyə resurslarının meyarları və şərtləri stimullaşdırıcı xarakter daşısın və yönəldilən maliyyə resursları kənd təsərrüfatı istehsalçılarının maddi-texniki bazasının gücləndirilməsinə, eyni zamanda onların rəqabətqabiliyyətinin artırılmasına əsaslar yarada bilsin. Təəssüf ki, praktikada kənd təsərrüfatı istehsalçılarının fəaliyyətində bu qeyd olunan pozitiv məqamların prioitetliyi hələ istənilən səviyyədə deyildir. Belə ki, rəqabətqabiliyyətli kənd təsərrüfati müəssisələrinin, şirkət və firmaların sayı o qədər də çox görünmür.

Eyni zamanda, ölkəmizdə qeyri-neft ixracının artırılmasında kənd təsərrüfatı məhsullarının rolu və payı son illərdə xüsusi diqqət cəlb etmişdir. Bu sahədə yüksək ixrac potensialının olması və ondan səmərəli istifadə edilməsi ölkəmiz üçün vacib məsələlərdəndir. Belə ki, ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi və neft amilindən asılılığın azaldılması baxımından kənd təsərrüfatı məhsulları istehsalının həcminin artırılması və çeşidinin genişləndirilməsi istiqamətində daha çox işlər görülməli, investisiyalar cəlb olunmalı və əvvəldə qeyd etdiyimiz kimi maksimum işlək, həmçinin əlçatan maliyyə-kredit mexanizmi hazırlanaraq tətbiq edilməli və bu sahədə fəal xidmət paketi formalaşdırılmalıdır. Göstərilən xidmətlər bürokratiyasız olmalı və maksimum şəffaflığı ilə fərqlənməlidir. Ölkə Prezidentinin 6 dekabr 2016-ci il tarixli Fərmanı ilə “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə maliyyə xidmətləri bazarının intensiv olaraq inkişaf etdirilməsi və bütün maliyyə seqmentləri üzrə dinamik bazarın formalaşdırılması hədəfləri müəyyənləşdirilmişdir [6].

Maliyyə bazarlarının inkişafı öz növbəsində imkan verəcəkdir ki, kənd təsərrüfatında maliyyə-kredit mexanziminin hazırkı tələblər və prinsiplər kontekstində təkmilləşdirilməsi və yenilənməsi mümkünləşsin. Professor, Əməkdar Elm Xadimi B.X.Ataşov hesab edir ki, ilk növbədə banklararası kredit bazarında bankların bir- birini kreditləşdirməsi səviyyəsi yüksək olmalıdır və onunla əlaqədardır ki, banklararası kredit bazarının vəziyyəti bütövlikdə bütün kredit bazarının durumunun əhəmiyyətli ötürücüsüdir. Banklararası bazarda kreditləşminin həçminin azalması kredit sferasında ciddi problemlər olduğunu sübut edir [2, s. 222]. Burada qeyd olunanlara rəğmən, biz də bu fikirdəyik ki, məhz kredit sferasında olan problemlər səbəbindən, ölkədə fəaliyyət göstərən bankların əksəriyyəti real iqtisadiyyat sahələrinə, o cümlədən kənd təsərrüfatı istehsalçılarına kreditlərin ayrılmasına ciddi maraq göstərmirlər. Bu problemin həlli istiqamətində son illərdə diskussiyalar artsa da, reallıqda cəlbedici və əlçatan maliyyə-kredit mexanizmi əldə etmək çətindir. Yalnız İqtisadi İnkişaf Nazirliyinin tabeçiliyində olan Sahibkarlığa Kömək Milli Fondundan yönəldilən güzəştli kreditlər istisna təşkil edir, amma bu kreditlərin həcmi ölkə iqtisadiyyatının iqtisadi inkişaf hədəflərinə və müasir dövrün tələblərinə tam olaraq adekvat deyildir və az sayda kənd təsərrüfatı istehsalçıları bu güzəştli kredit formasından bəhrələnmək imkanı əldə edirlər. Buna görə də, regionlarda maliyyə və bank sisteminin sərbəst balansa malik subyektlərinin yaradılması, maliyyə-kredit resurslarına əlçatanlığın təmin edilməsi tədbirlərinə böyük ehtiyac qalmaqdadır [12].

Bunlarla bərabər, maliyyə-kredit mexanizminin səmərəliliyinin artırılması və inkişafının gücləndirilməsi məsələsində ölkə Prezidentinin 15 sentyabr 2017-ci il tarixli “Kredit Zəmanət Fondunun yaradılması haqqında” Fərmanının müsbət mənada ciddi təsiri vardır [13]. Analoji fondun

fəaliyyət göstərməsi maliyyə-kredit təşkilatlarını nisbətən riskli hesab olunan real iqtisadiyyat sektoru sahələrinə, o cümlədən kənd təsərrüfatı istehsalçılarına davamlı şəkildə cəlbedici maliyyə-kredit xidmətlərinin göstərilməsinə, o cümlədən güzəştli şərtlərlə kreditlərin ayrılmasına sövq edə bilər və stimullaşdırar.

Eyni zamanda ölkə regionlarının inkişafı ilə bağlı məsələlər xeyli aktuallaşmışdır. Hazırda ölkə Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq olunmuşdur və onun icarsı prosesləri gedir [3]. Amma, hesab edirik ki, ölkə regionlarına, yəni kənd təsərrüfatı istehsalçılarının fəaliyyət göstərdiyi ərazilərə investisiya resurslarının və cəlbedici maliyyə-kredit xidməti paketlərinin gətirilməsi məsələlərinə yenidən baxılmalı və təkmilləşdirici tədbirlər görülməlidir. Professor A.E.Quliyeva bildirir ki, hazırkı şəraitdə COVİD-19 pandemiyasının təsiri altında investisiyaların axınında və bununla bağlı tədbirlərin reallaşdırılmasında ciddi maneələr və çətinliklər yaranmışdır. Bu istiqamətdə prioritet məsələlərdən biri real şəraitdə investisiyaların mümkün mənbələrinin konsolidasiya edilməsi və maksimum perspektivli iqtisadiyyat sahələrinə yönəldilməsidir. Bankların regionların sosial-iqtisadi inkişafında və maliyyə-kredit problemlərinin həllində roluna yenidən baxılmalıdır. Maliyyə-kredit resurslarının əlçatanlığı üçün müvafiq infrastruktur formalaşdırılmalıdır [15, s.51].

İstənilən kənd təsərrüfatı istehsalçısı - subyekti kredit resurslarını asan formada və operativ şəkildə götürmək şəraitinə malik olmalıdır. Bu məhsulun yetişdirilməsi, saxlanılması, ehtiyatlarının yaradılması, bazarlara çıxarılması, yaxud emal müəssisələrinə verilməsi işlərinin vaxtında maliyyələşdirilməsinə, təsərrüfatın maddi-texniki bazasının yaradılmasına, zəruri mal-materialın alınmasına operativ şəkildə vacib olan maliyyə-kredit resurslarına çıxış prosedurları da operativ olmalıdır.

Bununla bağlı dövlətin kredit siyasətinin də təkmilləşdirilməsi və maksimum obyektiv situasiyaya uyğunlaşdırılması, müasir çağırışların nəzərə alınması vacibdir. Maliyyə və kredit bazarlarının inkişafı ilə bağlı problemlərin sistemli və ardıcıl şəkildə həll olunması və bu bazarların intensivliyini ləngidən amillərin dərindən öyrənilməsi və baryerlərin aradan qaldırılması təmin edilməlidir. Maliyyə amili daim maksimum prioritet səviyyədə qiymətləndirilməli və onun praktiki mexanizmləri də işləkliyi ilə seçilməlidir. “Daimi iqtisadi inkişaf və ÜDM-in və milli gəlirin artımı şəraitində maliyyə özünün möhkəmliyi və sabitliyi ilə xarakterizə olunur, istehsalın daha da inkişafını, ölkə əhalisinin həyat səviyyəsinin artırılmasını stimullaşdırır” [16, s.17].

Bu qeyd olunanlar baxımından kənd təsərrüfatında maliyyə-kredit mexanizminin səmərəli olması və işləkliyi ilə seçilməsi həm də böyük sosial-iqtisadi məzmun daşıyır. Ölkə əhalisinin ərzaq probleminin həll olunması, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, insanların keyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsi ilə yanaşı, kənd təsərrüfatının inkişafının təmin olunması, eyni zamanda, sosial problemlərin həllində, məsələn, yoxsulluğun azaldılmasında və işsizliyin səviyyəsinin minimuma endirilməsində önəmli funksiyaları yerinə yetirir. Bundan əlavə, hazırda işğaldan azad olunmuş ərazilərdə müasir infrastrukturun yaradılması və “Böyük Köç” Qayıdışına hazırlıq işlərinin sürətləndiyi bir dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının və ümumilikdə, aqrar sektorun kompleks və sistemli inkişafı strateji əhəmiyyət kəsb edir.

Yaxın illərdə yuxarıda qeyd olunan məsələlər, problemlər, amillər və strateji aspektlər nöqteyi-nəzərindən kənd təsərrüfatının intensiv inkişafına böyük zərurət yaranacaqdır. Belə ki, ölkəmizdə əhalinin təbii artımı sabit olaraq qalır və hər il insanlarımızın həyat şəraiti yaxşılaşdıqca, gəlirləri çoxaldıqca, onların yüksək keyfiyyətli ərzaq məhsullarına tələbatları daha da yüksəlir, xüsusilə, natural maddələrə və keyfiyyət göstəricilərinə malik qida məhsullarına zərurət xeyli artmaqdadır. Bütün bunlar üçün kənd təsərrüfatı istehsalçılarının - fermer təsərrüfatlarının, kənd təsərrüfatı müəssisələrinin, mikro, kiçik və orta sahibkarların operativ olaraq kredit resurslarına, yəni zəruri maliyyə mənbələrinə çıxış imkanları yaradılmalı, maliyyə-kredit təşkilatlarının geniş və əlçatan şəkildə infrastrukturu təmin edilməli, kənd təsərrüfatında layihələrin həyata keçirilməsi ilə bağlı məqsədli tədbirlər görülməlidir və s.

*Nəticə*

Kənd təsərrüfatında maliyyə-kredit mexanizminin səmərəli təşkili problemlərinin həll olunması və zəruri tədbirlərin görülməsi üçün bu sahədə olan və intensiv inkişafı ləngidən baryerlərin yaranma səbəblərinin dərindən öyrənilməsi və dəyərləndirilməsi vacibdir. Kənd rayonlarının sosial problemlərinin həll olunması üçün real münbit şəraitin yaradılması, kəndlərdən şəhərlərə arzuolunmayan miqrasiya hallarının azaldılması, regionların sosial-iqtisadi inkişafının intensivləşdirilməsi baxımından burada fəaliyyət göstərən istehsalçıların, ilk növbədə kənd təsərrüfatı istehsalçılarının davamlı və dayanıqlı şəkildə maliyyələşdirilməsi, onların maliyyə-kredit resurslarına çıxışlarının optimal rejimlərinin və mexanizmlərin yaradılması böyük əhəmiyyət kəsb edir. Bunlarla bağlı bir sıra məsələlərə xüsusi önəm verilməlidir:

- qlobal çağırışlar və COVİD-19 pandemiyasından yaranan mənfi təsirlər əsas götürülməklə, kənd təsərrüfatında maliyyə-kredit mexanizminin səmərəli təşkilinin təmin olunması ilə bağlı sistem xarakterli tədbirlər görülməli və təkmilləşdirmələr aparılmalıdır;
- bank-kredit təşkilatlarının fəaliyyəti ilə bağlı qanunvericiliyin gücləndirilməsi, real sektorun maliyyələşdirilməsi ilə bağlı prinsip və meyarlara xüsusi diqqət yetirilməsi, bankların fəaliyyətində iqtisadiyyat sahələrinin maliyyələşdirilməsi ilə bağlı paritetliyin qorunması istiqamətində ən azından minimum fəaliyyəti özündə ehtiva edən öhdəliklərin müəyyənləşdirilməsi, kənd təsərrüfatı kimi həssas və vacib bir iqtisadiyyat sahəsinin maliyyə-kredit resursları ilə təmin olunmasında güvənli mexanizmlərin işlənməsi və tətbiqi vacibdir;
- ölkə regionlarında və xüsusilə işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı istehsalçılarının maliyyə-kredit mexanizmlərinin çevik və əlçatan mexanizmi yaradılmalı, Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının bərpasının və dirçəliş proseslərinin hədəflərinə uyğun təmin olunmalıdır və s.

**ƏDƏBİYYAT**


1. “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı // 16 aprel 2014-cü il. - Bakı: № 152.
2. Ataşov, B.X. Maliyyə bazarları. / B.X. Ataşov - Bakı, “Kooperasiya nəşriyyatı”, 2016. - 456 s.
3. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / - Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir, №500.
4. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. AR Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
5. Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı. Bakı şəhəri, 11 aprel 2017-ci il № 2806/
6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016. - 59 s.
7. Azərbaycan rəqəmlərdə. Rəsmi nəşr. Statistik məcmuə. Bakı, 2021.- s. 200.
8. Azərbaycanın kənd təsərrüfatı. Bakı, 2020. - 653 s.
9. Dadaşov, Ə.Ə. Kənd təsərrüfatı istehsalında dəyər zəncirinin maliyyələşdirilməsi məsələləri //AZETKTİ və Tİ, elmi əsərləri 2017/3, s. 41-50.
10. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatının resurs potensialının müasir aspektləri və ondan istifadənin səmərəlilik problemləri// Ş.T.Əliyev. - “Kooperasiya” jurnalı, №4, 2018. - s. 17-27.
11. Əliyeva, M.R. Aqrar-sənaye innovasiyalarının maliyyə stimullaşdırılması: / iqtisad üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2018. - s. 27.
12. İbrahimov, E.Y. Maliyyə və bank sisteminin regional iqtisadi inkişafın təminatında rolu (Naxçıvan MR timsalında). / iqtisad üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2017. - 28 s.

13. “Kredit Zəmanət Fondunun yaradılması haqqında” Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri.
14. Quliyev, E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. // E.A.Quliyev.- Bakı, “Elm”, 2013, 308 s.
15. Quliyeva, A.E. Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri. Monoqrafiya. “Kooperasiya” nəşriyyatı, Bakı, 2021. -308 s.
16. Məmmədova, E.B. Maliyyə. “Kooperasiya” nəşriyyatı, Bakı, 2018.- 464 s.

***Мушвиг Махал оглы Туканов***
***диссертант Центра Аграрных Исследований***
***Министерства Сельского Хозяйства***
***Азербайджанской Республики***

**Проблемы эффективной организации финансово-кредитного механизма в сельском хозяйстве в современном периоде**

***Резюме***

**Цель исследования** - в статье рассматриваются проблемы эффективной организации финансово-кредитного механизма в сельском хозяйстве в современном периоде.

**Методология исследования** - использованы экономические методы, такие как, анализ, синтез, сравнение и обобщение.

**Практическое значение исследования** - заключается в подготовке и реализации соответствующих и продуктивных механизмов эффективной организации финансово-кредитных механизмов в сельском хозяйстве, которые имеют стратегическую важность в современных условиях в контексте продовольственной безопасности в Азербайджане.

**Результаты исследования** - подготовлен ряд предложений и рекомендаций по направлениям продуктивного развития сельского хозяйства за счет оптимизации финансово-кредитных механизмов.

**Оригинальность и научная новизна исследования** - заключается в обосновании важности совершенствования существующих механизмов и формирования новых подходов по усилению финансово-кредитных механизмов в сельском хозяйстве, которые имеют важное значение для нашей страны в условиях продолжения негативных последствий мирового финансового кризиса и роста глобальных угроз.

***Ключевые слова: сельское хозяйство, финансово-кредитные механизмы, проблемы развития сельского хозяйства, финансовые проблемы сельского хозяйства, доступность кредита, финансовые механизмы, проблемы финансового обеспечения.***

***Mushfig Mahal Tukanov,***
***dissertation of the Research Center under the Ministry***
***of Agriculture of the Republic of Azerbaijan***

**Problems of effective organization of the financial and credit mechanism in agriculture in the current period**

***Summary***

**The purpose of the study -** the article considers the problems of the effective organization of the financial and credit mechanism in agriculture in the modern period.

**Research methodology** - economic methods such as analysis, synthesis, comparison and generalization are used in the article**.**

**The practical significance of the study** is the preparation and implementation of appropriate and productive mechanisms for the effective organization of financial and credit mechanisms in agriculture, which have of strategic importance in the current conditions in the context of food security in Azerbaijan.

**Results of the research -** a number of proposals and recommendations have been prepared in the areas of productive development of agriculture through the optimization of financial and credit mechanisms.

**Originality and scientific novelty of the research** is to justify the importance of improving existing mechanisms and developing new approaches to strengthen financial and credit mechanisms in agriculture, which are important for our country in the context of the continuing negative consequences of the global financial crisis and the growth of global threats.

***Key words: agriculture, financial and credit mechanisms, problems of agricultural development, financial problems of agriculture, availability of credit, financial mechanisms, problems of financial security.***